# Məmmədli və başqaları Azərbaycana qarşı
# Qərar – 30.06.2016

İş 2011-ci ildə müxtəlif tarixlərdə 4 Azərbaycan vətəndaşının (**cənab Nurəddin Musa oğlu Məmmədli, xanım Dünyaxanım Cahan qızı Cərullayeva, cənab Nobatəli Qulam oğlu Pələngov və cənab İltizam Nizam oğlu Əkbərli**) İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanın 34-cü maddəsinə əsasən verdiyi şikayət əsasında başlanmışdır.

Ərizəçilər 7 noyabr 2010-cu il parlament seçkilərində müxtəlif seçki dairələrində namizəd qismində qeydiyyata alınmaq üçün müraciət etmişlər. Müvafiq Dairə Seçki Komissiyaları müxtəlif tarixlərdə ərizəçilərin müraciətlərini təqdim edilmiş imzaların bəzilərinin etibarlı olmaması səbəbindən təmin etməmişlər.

Məhkəmə bu işdə aşağıdakı maddələrin pozuntusuna yol verildiyi qənaətinə gəlmişdir:

- 1 saylı Protokolun 3-cü maddəsinin pozuntusu;
- 34-cü maddənin pozuntusu.

Məhkəmə hər bir ərizəçiyə mənəvi ziyana görə 10 000 avro və məhkəmə xərcləri və digər məsrəflərə görə 3 ərizəçiyə birlikdə 3 000 avro, digər ərizəçiyə isə 1 000 avro məbləğində kompensasiya təyin etmişdir.

**İcra etdi:** İnsan Hüquqları və İctimaiyyətlə
Əlaqələr Şöbəsinin aparıcı məsləhətçisi
Gülarə Abdullayeva
Tel.: 489-07-07 (daxili nömrə - 8095)